**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№**030/350

**Bakı şəhəri** "29" aprel **2024-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması ilə bağlı tədbirlər haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2024-cü il 24 aprel tarixli rəsmi məlumatına əsasən, Liviya Dövlətinin Əl Mərqab (Al Marqab) dairəsində nodulyar dermatit xəstəliyi qeydə alınmışdır.

Bununla əlaqədar, respublika ərazisinin qeyd olunan yoluxucu xəstəlikdən qorunması üçün Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) tərəfindən zəruri tədbirlərin görülməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin Liviya Dövlətinin Əl Mərqab dairəsində xəstəliyinin qeydə alınması barədə məlumatları nəzərə alınsın.

**2.** Liviya Dövlətinin Əl Mərqab dairəsində, zonalaşma prinsipi nəzərə alınmaqla, nodulyar dermatit xəstəliyi baş vermiş təsərrüfatın 50 km radiusda olan məsafədən bütün növ diri iribuynuzlu heyvanların və onlara aid genetik materialların idxalına ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nin 11.9-cu Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**3.** Epizootik risk amillərinin mövcudluğu nəzərə alınaraq, bu qərarın 2-ci bəndində adıçəkilən inzibati ərazi vahidinin sağlam ərazilərindən ölkəmizə idxal edilən həmin mallar yüksək risk qrupuna aid edilsin və daxil olan yükün hər partiyası laboratoriya müayinəsinə cəlb olunsun.

**4.** Xəstəliyin aşkarlandığı tarixə kimi, bu qərarın 2-ci bəndində qeyd olunan inzibati ərazi vahidindən ixracatçı ölkənin səlahiyyətli qurumunun nəzarəti altında ölkəmizə daşınmaq üçün yüklənmiş adıçəkilən malların idxalı laboratoriya müayinəsinə cəlb olunmaqla həyata keçirilsin.

**5.** Bu qərarın 2-ci bəndinin icrasının təmin edilməsi üçün, eyni zamanda sözügedən ölkənin qeyd olunan inzibati ərazi vahidindən ölkə ərazisinə və yaxud həmin inzibati ərazi vahidindən tranzitlə keçib respublika ərazisinə daxil olan, habelə respublika ərazisindən tranzitlə digər ölkələrə gedən nəqliyyat vasitələrinin gömrük-sərhəd buraxılış məntəqələrində dezinfeksiya edilməsi ilə bağlı Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət ünvanlansın.

**6.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**7.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**8.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer
Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi * Food Safety Agency of the Republic of Azerbaijan *